# Azərbaycanın təqdim etdiyi sülh yolu

**Fevralın 4-də hər birimiz qürurdoğuran hadisəyə şahidlik etdik. Həmin gün Prezident İlham Əliyevə Əbu-Dabidə "Zayed İnsan Qardaşlığı Mükafatı"nın təqdim olunması dövlətimizin başçısının təşəbbüsləri ilə başlanan Azərbaycanla Ermənistan arasındakı sülh prosesinin qlobal təntənəsi oldu.**

Bu fikirləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Soltan Məmmədov bildirib. O qeyd edib ki, "Zayed İnsan Qardaşlığı Mükafatı" dünyada sülh, həmrəylik və dinc yanaşı yaşama prinsiplərini təşviq edən şəxslərə və qurumlara verilən nüfuzlu beynəlxalq mükafatdır: "Bu mükafat dinlərarası və mədəniyyətlərarası dialoqun təbliğinə, insan ləyaqətinin qorunması, münaqişələrin sülh yolu ilə həllinə, qlobal həmrəyliyin gücləndirilməsinə real töhfə verən şəxslərə təqdim olunur. Azərbaycan Prezidenti İlham Əliyevin bu mükafata layiq görülməsi regionda həyata keçirdiyi sülh siyasətinə verilən yüksək beynəlxalq qiymətdir. Eyni zamanda bu, Azərbaycan dövlətinin həyata keçirdiyi diplomatik kursun beynəlxalq səviyyədə təqdir olunmasının bariz bir nümunəsidir. Prezident İlham Əliyevin Birləşmiş Millətlər Təşkilatında çıxışı zamanı qeyd etdiyi kimi, biz həm müharibəni udduq, həm də sülhü



qazandıq. Bu, təkcə Azərbaycan ilə Ermənistan arasında paraflanmış Sülh Sazişinin deyil, eyni zamanda Azərbaycan Prezidentinin həyata keçirdiyi uğurlu siyasətin bəşəriyyətə verdiyi töhfələrin dəyərləndirilməsidir".

Soltan Məmmədovun sözlərinə görə, İkinci Dünya müharibəsindən sonra dünyada çoxsaylı münaqişələr meydana çıxıb. Lakin bu münaqişələrin heç biri sülh ilə tamamlanmamışdır. Azərbaycan isə bu məsələdə nümunə yaradır. "Prezident İlham Əliyevin "Zayed İnsan Qardaşlığı Mükafatı"nın təqdimolunma mərasimində qeyd etdiyi kimi, bizim nümunəmiz öyrənilməli və hələ də müharibə vəziyyətində olanlar üçün yol xəritəsi kimi istifadə edilməlidir. Bizim nümunəmiz göstərir ki, uzunmüddətli münaqişəyə, əzablara və qarşılıqlı etimadsızlığa baxmayaraq, sülh mümkündür. Münaqişədən əziyyət çəkən ölkələr Azərbaycanın bu nümunəsini araşdırmalı və öyrənməlidirlər" - deyə deputat bildirib.

Soltan Məmmədov qeyd edib ki, bu gün Azərbaycan beynəlxalq ictimaiyyət tərəfindən regionda və ondan kənarda sülh siyasətini təbliğ edən ölkə kimi qəbul olunur. "Dünya ictimaiyyəti Azərbaycanın sülh siyasətinə sadiqliyini yüksək qiymətləndirir. Bu baxımdan Prezident İlham Əliyevin "Zayed İnsan Qardaşlığı Mükafatı"na layiq görülməsi Azərbaycan xalqının və dövlətinin qələbəsidir. Bu hadisə bizim uğurlu və davamlı sülhə gedən yolda hədəfə çatmağımıza böyük dəstək olacaqdır", - deyə deputat bildirib.

***Təhminə VERDİYEVA,***
***"Azərbaycan"***

Azərbaycan.- 2026.- 7 fevral (№24).- S.11.